# "Milli rəqs sənəti"



Azərbaycanda qədim zamanlardan başlayaraq rəqs sənətinin yaranışı ,inkişafı haqqında Qobustandakı cizgilərdən başlayaraq, sonrakı dövrlərdə xanların, şahların məclislərində ifa etmələri ,1916-ci ildə "Neft və milyonlar səltənətində" filmində çəkildiyi fraqmentlər və s. mənbələrdə yetərincə informasiyalar olub. 1936-cı ildə Üzeyir bəy Hacıbəyli Filarmoniyada Xor, Rəqs ansamblı yaradıb, sonra onları birləşdirib Mahnı və Rəqs Ansamblı kimi təqdim edib. Bu kollektiv böyük inkişaf yolu keçmiş, bütün mədəniyyət ocaqlarında rəqs sənətinə layiqli yer verilmiş, özfəaliyyət dərnəklərinin şəbəkəsi yaradılmış, mədəniyyətin bu növünə xeyli uşaq və gənclərin axını olmşdur. Qeyd etmək lazımdır ki, mədəniyyətin heç bir növünə belə kütləvi axın, sıçrayış olmamışdır. 1941-1945 Böyük Vətən müharibəsi illərində Mahnı və Rəqs Ansamblının üzvlərinin bir neçə dəfə İrana səfəri olmuş, Sovet əsgərlərinin qarşısında çıxışlar etmiş, cəbhəçilər arasında böyük ruh yüksəkliyi yaratmışdılar. 1943-ci ildən isə onlar yeni yaradılmış 416-cı Azərbaycan diviziyasının istiqaməti ilə cəbhə boyu Belarus meşələrinə qədər getmiş, yeraltı qazmalarda, qospitallarda döyüşçülərə, yaralı əsgərlərə konsertlər vermişlər. 1944-ci ildə, müharibənin qızğın vaxtında Gürcüstanda keçirilmiş Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə ansamblın "Dədə Qorqud", "Vətən və cəbhə" kompozisiyaları ilə uğurlu çıxışları olmuşdur. Qeyd etmək lazımdır ki, ancaq İ.Stalinin vəfatından sonra sərhədlər açılmış və Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının uğurlu xarici səfərləri baş tutmuşdu. 1957-ci ildə Moskvada keçirilən Ümumittifaq və ardınca Ümumdünya Festivallarında Mahnı və Rəqs və "Neftçi" Rəqs Ansambllarının quruluş və ifaları yüksək nailiyətlər, 8 qızıl, gümüş və bürünc medallar qazanmışdır. 1958-ci ildə




Mahnı və Rəqs Ansamblı SSRİ Mədəniyyət Nazirliyi tərəfindən Çin Xalq Respublikasına qastrol səfərinə göndərilmişdir. 1959-cu ildə Moskvada Azərbaycan İncəsənətinin Dekadası keçirilmişdir. Mahnı və Rəqs Ansamblının bu tədbirdə daha böyük uğurlu çıxışları olmuş və SSRİ və Azərbaycanın yüksək fəxri adları Azərbaycanın görkəmli incəsənət xadimlərinə verilmişdir. 1960-cı ildə Mahnı və Rəqs Ansamblı ərəb ölkələrinə göndərilmişdir. Çin və ərəb ölkələrinin incəsənət xadimləri Azərbaycan mədəniyyətinin nümunələri ilə tanış olmuş və heyrətə düşmüşdülər ki, Azərbaycan kimi kiçik bir ölkənin belə qədim tarixi, zəngin musiqisi, çox gözəl və mənalı rəqsləri var. Həmin ölkələrdə bu haqda onlar çıxışlar etmiş və çap olunmuş materialları bizim sənətkarlarımıza hədiyyə etmişdilər. Uzun illərdir ki, bu materiallar bizim Dövlət Ədəbiyyat və İncəsənət Arxivində qorunur. 1970-ci ildə Filarmoniyada Dövlət Rəqs Ansamblı da yaranmış və Azərbaycan Dövlət Filarmoniyasının bu iki rəqs kollektivi bütün ölkələri gəzib, Azərbaycanın rəqs sənətini yüksək səviyyədə nümayiş etdirərək uğurlar qazanmış, "Xalq artistləri", "Əməkdar artistlər", "Əməkdar incəsənət xadımləri" yetişdirmişdir. Əfsuslar olsun ki, onların çoxu vəfat etmiş, bir hissəsi yaşa dolmuş, rəqs sənətinin tarixi isə toplanmamış, unudulmuş,





yazılmamışdır. Belə vəziyyət uzun illər bu sənətdə işləyən rəqqasların həmişə narahat edib. Odur ki, Əməkdar artist, Azərbaycan Dövlət Rəqs Ansamblının baletmeysteri Xanlar Beşirov və Sənətşünaslıq üzrə fəlsəfə doktoru Əhsən Rəhmanlı birgə böyük təhqiqat işi görərək elmi cəhətdən çox zəngin, maraqlı "Milli rəqs sənəti" adlı bir əsər yaratmışlar. Bu kitab 579 səhifədən ibarətdir və burada Azərbaycan rəqs sənətinin yaranışından, bölgələrimizdə və xaricdə ifa olunan milli rəqslərimizdən, folklordan, musiqilərdən, bəstəkarlardan, quruluşlardan, 60-dan artıq rəqqasdan, onların həyatından, uğurlarından, onlara qarşı bəzən laqeyd yanaşmalardan bəhs edir. Bu kitab elmi, tarixi cəhətdən çox zəngin bir əsərdir və Azərbaycan rəqs sənətini yaradanlar, inkişaf etdirənlər, böyük zəhmət sərf edib, bu yolda canlarını fəda edənlər haqqındadır. Əsəri oxuyub, Azərbaycan milli rəqs sənətinin tarixini seyr edib, müəlliflərinə minnətdarlığımızı bildirir və fəaliyyətlərində yeni böyük uğurlar diləyirik.

**Azərbaycanın Xalq artistləri:**
***Rüfət Xəlilzadə,***
***Cəmilə Bayramova,***
***Yusif Qasımov***
**Əməkdar artistlər:**
***Aliyə Ramazanova,***
***Zemfira Camalova***
**Rəqqaslar:**
***Nisəxanım Rəhimova,***
***Etibar Zeynalov.***

***Ə.RSSHMANLI***
***10 oktyabr***